AĞLAR QALDI "TUT AĞACI..."

Həyatdan vaxtsız köçən Aygün Bəylərin xatirəsinə

Soyuq bir qış günü...

Böyük çillənin acı küləyi iliyə işləyəndə, ondan daha acı, qəlbləri göynədən, ürəkləri paramparça edən bir xəbər eşitdik.

Heç kim eşitdiyinə inanmaq istəmirdi.

"Bəlkə yalan xəbərdir"-deyib özünə təskinlik verənlər də var idi. Amma xəbər yalan deyildi...

Həqiqət idi, bu acı xəbər - Aygün Bəylər vəfat edib!

Göydə buludlar ağladı, fəryad etdi. Hava küskün uşaq kimi tutuldu. Səmada quşlar fəryad etdi, ağaclar budaqlarını bir-birinə çırpıb ağladı...

Ağladı, təbiətdə nə varsa, ağladı...

İnsanlar "Tut ağacı"nın sahibi öldü-deyib inlədi...

Pərəstişkarları "Söyüdlər" Aygünsüz qaldı- deyib inlədi.

Kim isə "Özün günahkarsan" mahnısını yada salıb üsyan etdi.

Axı niyə özünü qorumadın, Aygün?!

Axı sən Azərbaycan müsiqisinin ən gənc sütunu idin!

Sənin səsini, sənin avazını eşidənlərin canından can ayrılırdı.

Bir ağac yıxıldı –Aygün Bəylər adlı bir ağac...

Kölgəsində minlərlə insanın ruhu dincələn? Aygwn adl; bir ağac...

Səsi-zəngüləsi eşidiləndə bülbüllər susan, könülləri ecaskar səsi ilə fəth edən Aygün Bəylər adlı bir ulduz söndü...

Niyə əcəl sənə qarşı belə amansız oldu?

Ölüm necə qıydı sənə? Bəs sənin tək balan kimə sığınacaq?

Aqşin Abdullayevlə duet oxuduğun mahnını xatırlayırıq:

"Səni yaz qatarı apardı tezdən, elə bil dünyanı qarlı qış aldı..."

Sən haradan bilirdin ki, səni bizdən alıb aparan qış qatarı olacaq?

Aygünsüz qaldı Azərbaycan musiqisi!

Aygünsüz qaldı Aygün sevənlər.

Aygünsüz qaldı Azərbaycan musiqisi! Aygünsüz!

Tut ağacı...

Böyrü üstə yıxıldı ağ tut ağacı.

Hamı heyrət içində yıxılan ağaca baxırdı. Yam-yaşıl ağac niyə birdən-birə yıxılsın?

Bir vaxtlar az qala barmaq boyda ağ tutların şirəsi axardı bu ağacdan.

Bu ağacı şeirlərində vəsf edən, başını onun gövdəsinə söykəyib uşaqlıq illərini xatırlayanlar çox olmuşdu.

Bəzən onun pıçıltılarını dinləyənlər də olurdu.

Yıxıldı ağ tut ağacı...

Dözmədi sənsizliyə, Aygün!

Sənin ölüm xəbərini eşidən kimi başını torpağa çırpıb sənə yas tutdu, ağac...

Qoca ağacın gövdəsi onu saxlaya bilmədi.

Böyrü üstə yıxıldı, ağ tut ağacı...

Bəlkə o ağac da sən yatan torpaqda yatmaq istəyirdi.

Bəlkə ağac da səndən sonra yaşamaq istəmirdi...

Bəlkə torpağın altında sənə həmdəm olmaq istəyirdi...

Bu bəlkələrə cavab tapmaq çox çətindir...

Bir elin kişi qeyrətli qızı dünyaya əlvida dedi!

Məmləkətin ləyaqətli bir qızı dünyaya vida etdi!

Müğamat aləmi Aygünsüz qaldı.

Tarın, kamanın simləri bir anda fəryad edib, gərildi və qırıldı.

Aygünsüz qaldı

Azərbaycan musiqisi! Aygünsüz!

Gülarə MUNİS,
AYB və AJB üzvü